# AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİNDƏ VƏ MİLLİ ÖZÜNÜDƏRK MƏSƏLƏLƏRİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

**Zeynəb *HƏCƏMOVA***
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı*
*Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti aparatı*
*Humanitar Elmlər Bölməsində vitse-prezidentlərin xidmətinin baş mütəxəssisi*
*Azərbaycan, Bakı şəhəri*
*zeynebhecemova1990@gmail.com; https://orcid.org/0000-0001-5886-0984*

## Xülasə

**Tədqiqatın elmi nəticələri.** Nəticə etibarilə belə bir qənaətə gəlinmişdir ki, İslam dininin gözəlliyini və saflığını duyan, bütün nəcib insani keyfiyyətləri özündə birləşdirən dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev *dövlət-din münasibətlərinin tənzimlənməsini rəhbər-xalq birliyini* yaratmaqda görmüş, Azərbaycan xalqının sülhpərvərliyini dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd olaraq qoymuşdur. Özünün yüksək təhlil qabiliyyəti sayəsində o dərk etmişdir ki, dini inanc və Allah sevgisi insanın mənəvi məramının nizam-intizam qaydalarından biridir və dini etiqada ehtiram göstərilməsi multikultural tolerantlığın təminatı ola bilər.

**Tədqiqat işinin elmi yeniliyi.** İşin elmi yeniliyi Ulu Öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin ən zəruri istiqamətini xilas və inkişaf yolunun Azərbaycan xalqının milli ruhunun dirçəldilməsi, bütün sahələrdə idarəetmə sisteminin gücləndirilməsi, xalqın milli özünüdərk və özünütəsdiq təfəkkürünün özünə qaytarılması və azərbaycançılıq məfkurəsinin sistemləşdirilməsində təzahür edir. Ulu Öndər Heydər Əliyev ölkədə hökm sürən kütlə psixologiyasının sülhlə bəhrələnmiş azərbaycançılıq ideyaları ilə əvəz olunmasına nail olmuşdur.

**Tədqiqat işinin əhəmiyyəti.** Azərbaycanı beynəlxalq siyasi müstəvidə tanıtmağı başlıca hədəf olaraq seçən dahi lider Heydər Əliyev şərəfli və məsuliyyətli yolun öndəri olaraq bütün insanlığı humanizmə, tolerantlığa, nəcibliyə və sülhə çağırmışdır. Əldə etdiyi hər bir uğuru Vətənə sədaqət andının bəhrəsi olaraq qəbul edən Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının təfəkküründə islam dininin rolunu xüsusilə yüksək qiymətləndirmiş və dövlət-din münasibətlərində qanunla tənzimlənən şəriət nurunun layiqli təmasının bünövrəsini qoymuşdur.

**Açar sözlər:** *Heydər Əliyev fenomeni, elm və təhsil, milli özünüdərk, dini substansiya, dövlət quruculuğu, müasir çağırışlar*

# THE ROLE OF THE GREAT LEADER HEYDER ALIYEV IN STATE-RELIGION RELATIONS AND NATIONAL SELF-CONSCIOUSNESS

*Zeyneb HAJAMOVA*

## Summary

**Scientific conclusion of the investigation**. As a result, it was concluded that the great personality, the Great Leader Heydar Aliyev, who felt the beauty and purity of the Islamic religion and combined all the noble human qualities, saw the regulation of state-religion relations in creating the unity of the *leader-people*, and set himself the goal of conveying the peace-loving spirit of the Azerbaijani people to the world community. Thanks to his high analytical ability, he realized that religious faith and love for God are one of the rules of order and discipline of a person's spiritual purpose, and respect for religious beliefs can be a guarantee of multicultural tolerance.

**Scientific novelty of the investigation**. The scientific novelty of the work is that the most important direction of the socio-political activity of the Great Leader Heydar Aliyev is the revival of the national spirit of the Azerbaijani people, the strengthening of the management system in all areas, the return of the people's national self-awareness and self-affirmation thinking to themselves, and the systematization of the ideology of Azerbaijanism. Great Leader Heydar Aliyev succeeded in replacing the prevailing mass psychology in the country with the ideas of Azerbaijanism that were fruitful with peace.

**Importance of the investigation.** The Great Leader Heydar Aliyev, who chose the promotion of Azerbaijan in the international political arena as his main goal, called on all humanity to humanism, tolerance, nobility and peace as the leader of an honorable and responsible path. Accepting every success he achieved as the fruit of the oath of allegiance to the Motherland, the National Leader Heydar Aliyev especially highly appreciated the role of the Islamic religion in the thinking of the Azerbaijani people and laid the foundation for the worthy contact of the light of sharia regulated by law in state-religion relations.

***Keywords:*** *Heydar Aliyev phenomenon, science and education, national self-awareness, religious substance, state-building, modern summons*

**Giriş.** Azərbaycanda dövlət-din münasibətlərində və milli özünüdərk məsələlərində Ulu Öndər Heydər Əliyevin rolu kimi geniş, əhatəli və dərin mövzuda fikir söyləmək mütərəqqi bir şərəfdir. Hər bir elmi əsərin, məqalənin özünün tərtib olunma üslubu vardır. Üslub fərdi və ictimai səciyyə daşımaqla əsərin aydınlığını, düzgünlüyünü, oxunaqlı olmasını və funksionallığını ifadə edir. Məhz bu baxımdan gənc tədqiqatçı olaraq belə bir ciddi mövzuda lakonik tərtibat qaydaları çərçivəsində müstəqil Azərbaycan Respublikasının banisi, xalqın dahi lideri Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri və milli özünüdərk məsələlərinin tənzimlənməsində rolunun, Azərbaycan xalqının ilahi inanclarının mahiyyətinin və dini əqidənin milli özünüdərk təfəkkürünün formalaşmasına təsirinin sosial-psixoloji və mənəvi-ideoloji tərəflərinin təhlini aparmaq qürurverici və məsuliyyətli vəzifədir. Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən, habelə onun mənəvi dəyərlərinin və zəngin mədəniyyətinin mühüm tərkib hissələrindən biri də İslam dinidir. Xalqın dini inanclarına göstərilən hörmət münasibəti Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilərək öz əksini tapmışdır (Hüseynov, 2012, 34). Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ədalətli din siyasəti müasir dövrdə də dövlət və cəmiyyət dialoqunun anlaşılan olmasına və uğurlu vətəndaş siyasətinin qüvvədə saxlanılmasına xidmət etmişdir. Ulu Öndər Heydər Əliyevin idarəçilik sahəsində göstərdiyi uğurları onun hadisələrə operativ yanaşması ilə əlaqədar olmuşdur. O hadisələri ən düzgün istiqamətdə qavrayaraq icrası ən vacib olan məsələləri gündəmə gətirərək həlli yolu istiqamətində islahatlar aparmışdır (Budaqov, 2002, 17). Tarixi faktlar sübut edir ki, Ulu Öndər Heydər Əliyev İslam dininin gözəlliyini və tərəqqipərvərliyini qurduğu dünyəvi və demokratik dövlətin ictimai inkişafı naminə axıcılığının təmin olunması istiqamətində görmüşdür. Dahi lider Heydər Əliyevin zəngin ictimai-siyasi fəaliyyətinin əsas qayəsini yalnız bir ideya stimullaşdırmışdır – *Azərbaycan xalqını əmin-amanlıq və sülh şəraitində firavan yaşatmaq!* Bu və digər sahədə görülən işlər belə bir müqəddəs ideyanın işığında özünün ən yüksək idarəçilik səviyyəsinə yüksəlmişdir.

**Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsində Heydər Əliyev fenomeni.** Qəlbində Vətənə sonsuz sevgi hissləri olan və atdığı hər addımda xalqın etimadını doğruldan Heydər Əliyev nəcib şəxsiyyəti, yüksək mənəvi dəyərləri və hər bir sahədə nümayiş etdirdiyi idarəçilik qabiliyyəti ilə təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da sevilir və sayılırdı. Heydər Əliyev canından çox sevdiyi xalqı qarşısında etdiyi çıxışlarda tez-tez vurğulamışdır ki, azadlıq və müstəqillik asan əldə olunan məfhumlar deyil və bunun üçün mübarizə aparmaq lazımdır.

Ümummili lider Heydər Əliyev Azərbaycanda tarixi kamilliyin əsasını qoymuşdur. Ölkəmiz müstəqillik qazandıqdan sonra məhz Azərbaycanın təşəbbüsü ilə din və mədəniyyətlə bağlı çoxsaylı beynəlxalq konfransların ölkəmizdə keçirilməsi, dini tolerantlıq sahəsində Azərbaycanın başqa ölkələr üçün nümunə olması və elmi nəzəri və praktiki əhəmiyyət kəsb edən konfranslarda dini tolerantlıqla bağlı yeni müddəaların hazırlanıb təşviq edilməsi olmuşdur (Hüseynov, 2012, 14). Bunun nəticəsidir ki, *İstanbul Beynəlxalq "Sülh və səbr" konfransı 7 fevral 1994-cü ildə Bakı şəhərində* keçirilmişdir. Bu konfransda Azərbaycan Respublikasının o zamanki Prezidenti Heydər Əliyev nümunəvi nitq ilə çıxış etmişdir (17). Ulu Öndər Heydər Əliyevin "Sülh və səbr" konfransındakı nitqini Sizlərə təqdim edirik:

*“Möhtərəm konfrans iştirakçıları! Ayrı-ayrı bölgələrdə millətlərarası münaqişələrin gücləndiyi, xalqların qarşı-qarşıya qoyulduğu narahat zəmanəmizdə bütün sülhsevər qüvvələrin, xüsusilə də din xadimlərinin bir araya gəlməsi, dünyada barışıq və əmin-amanlıq üçün səy göstərməsi təqdirəlayiq hadisədir. Adamları humanizmə, şəfqətə, nəcibliyə, yüksək mənəvi dəyərlərə səsləyən dinlərin bəşər tarixində rolu əvəzsizdir. Silahların danışdığı, Uca Tanrının günahsız bəndələrinin acı məhrumiyyətlərə düçar olduğu bir vaxtda insanlara dözümlülük, mərhəmət və qarşılıqlı hörmət duyğuları təlqin edən Müqəddəs Allah kəlamlarına dünyamızın böyük ehtiyacı var. Bəşəriyyət üçün sülhə, barışığa nail olmağın yolu Tanrı nuruna tapınmaqdan, mənəvi, ruhani kamillikdən keçib gedir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, toplantınız xalqlar arasında sülhün, dinc və mehriban qonşuluq münasibətlərinin bərqərar olmasında öz təsirli sözünü deyəcəkdir. Konfrans iştirakçılarını səmim-qəlbdən salamlayır və qarşıya qoyduğunuz xeyirxah məqsədlərin gerçəkləşməsi naminə hamınıza uğurlar diləyirəm.”* (15).

Söylədiyi nitqdə Azərbaycanda və bütünlükdə Qafqazda yaşayan müxtəlif xalqların tarixən tolerant şəkildə, sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını beynəlxalq simpoziumda xüsusi vurğulayan Heydər Əliyev bütünlükdə islam dininin tolerant din olduğunu, eyni zamanda Azərbaycan xalqının başqa dinlərə qarşı dözümlü olduğunu da geniş şəkildə əsaslandırmışdır (Hüseynov, 2012, 26).

Ulu Öndər Heydər Əliyevin İslam dininə olan münasibəti onun ictimai-siyasi fəaliyyətinin ayrılmaz hissəsini təşkil etmişdir. Heydər Əliyevin dövlət-din siyasətinin əsasını daima *Yurdda sülh, Qafqazda sülh, Cahanda sülh* sözləri təşkil edirdi. Təsadüfi deyildir ki, Türkiyə və türk dünyası ilə əməkdaşlıq əlaqələrinin qurulub inkişaf etdirilməsi, nəzəri biliyi, nəhəng, əhatəli və praktik fəaliyyəti ilə türk və müsəlman dünyasına böyük töhvələr verməsi və xalqlararası mədəni əlaqələrin gücləndirilməsi istiqamətində əvəzsiz xidmətlərinə görə Ümummilli lider Heydər Əliyev 13 aprel 1999-cu il tarixdə “*Mustafa Kamal Atatürk Beynəlxalq Sülh mükafatı*”na [1] layiq görülmüş və sülhsevər lider olaraq ümumdünya şöhrət qazanmışdır (Budaqov, 2002, 16).



Türkiyə Cümhuriyyətinin Prezidenti (o vaxtkı) Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti (o vaxtkı) Heydər Əliyevə “Mustafa Kamal Atatürk Beynəlxalq Sülh mükafatı”nı təqdim edir.
13 aprel, 1999-cu il
Türkiyə, Ankara

**Azərbaycanda milli özünüdərk məsələlərinin tənzimlənməsində Heydər Əliyev fenomeni.** Azərbaycan xalqının böyük oğlu, İslam dünyasının nadir incisi və bütün dünyada sülhsevər lider olaraq tanınan Ulu Öndər Heydər Əliyevin fəaliyyətini dərindən dərk etdikcə anlayırsan ki, o dünyəvi və dini biliyə malik olan səriştəli siyasətçi,

[1] Atatürk Beynəlxalq Sülh Mükafatı (türk. Atatürk Uluslararası Barış Ödülü) – 1986–2002-ci illərdə Türkiyədə verilən və Mustafa Kamal Atatürkün şərəfinə adlandırılan yüksək dövlət mükafatı. Mükafat dünyada sülhə töhfə vermiş insanlara verilirdi.

tarixçi, iqtisadçı, filosof, filoloq, ekoloq olmuşdur (Budaqov, 2002, 18). Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, dövlətin din siyasətində yeni bir mərhələ başlamışdır. Radikal dini təriqətlərinin fəaliyyətinin qarşısı alınmış, bu sahədə zəruri islahatlar aparılmışdır (Məmmədov, 2018, 6). Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və digər dövlət qurumlarının fəaliyyəti ilə yanaşı, bir sıra digər aidiyyatı rəsmi qurumların yaradılması və ölkəmizin zəngin tarixə malik tolerantlıq ənənələrinin möhkəmləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər prosesinə cəlb edilməsi Azərbaycan Hökumətinin tolerantlıq, multikulturalizm, mədəniyyətlər və dinlərarası dialoq sahəsində hədəflərinə doğru irəliləməsini daha da sürətləndirmişdir. Bu sahədə vacib və prinsipial qərarlardan biri də ölkə Prezidentinin 2016-cı ili Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan etməsi və bununla əlaqədar Tədbirlər Planını təsdiqləməsindən ibarət olmuşdur. Sadalanan bu və digər tədbirlər dövlət və din münasibətləri, eləcə də multikuturalizm sahəsində yeni bir mərhələnin strateji inkişaf xəritəsini müəyyən etmişdir (Məmmədov, 2018, 76).

Məlum məsələdir ki, demokratik dövlətin yaradılması, qorunması və inkişaf etdirilməsi quruculuq işləri ilə məşğul olan xalqdan və rəhbərdən yüksək mənəviyyat, intellektual bacarıq və milli kimlik səciyyəsi tələb edir. Vaxtilə, Ümummilli lider Heydər Əliyevin *"Yüksək tolerantlıq, ilk növbədə, yüksək mədəniyyətin təzahürüdür"* fikri ilə Azərbaycanın milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün mənəvi dəyərlərin inkişafının onun ideoloji düşüncə tərzinin nəticəsinin ifadəsi olduğunu dərk etmişdir (Budaqov, 2002, 8). O, İslam dinini böyük humanist birləşdirici qüvvə olaraq təzadlardan təmizləməklə, dinin mütəfəkkirliyini qorumaqla və xalqın mədəniyyətini milli özünüdərk təcrübəsinə çatdırmaqla misilsiz dövlət və din siyasəti yürütmüşdür. Bu faktı tarixçilərimiz, din xadimlərimiz və dilçi alimlərimiz də təsdiq edir (Babayev, 2004, 18). Onlar həmçinin qeyd edir ki, Azərbaycan xalqı əsrlər boyu bütün Qafqazdakı mövcudluğu ilə azadlıqsevər təmayülə malik olmuş, yüksək mədəniyyəti və dövlətçilik ənənələri ilə fərqlənmiş, habelə mənəviyyatımızı yaşadan həmvətənlərimizin fəaliyyəti ilə bütün dövləri əhatə edəcək əbədiyyət qazanmışdır. Böyük şərəf və ehtiramla qeyd etmək istərdik ki, Azərbaycanın milli-mənəvi ideologiyasının təşəkkülü və milli özünüdərk təcrübəsinin yüzilliklərə yazılaraq dövrümüzədək ötürülməsi Azərbaycan xalqının dahi lideri Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin tutduğu şanlı yol haqq yolu idi və bu gün XX əsrin sonundan vüsət alan milli özünüdərk ənənəsinin tarixi reallıqları özünün ən yüksək inkişaf səviyyəsində Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilir.

**Dini inancların milli özünüdərk xüsusiyyətinə sirayət trayektoriyası və qarşılıqlı əlaqələr sistemi.** "Qurani-Kərim"də elmin və savadlanmanın vacibliyinə diqqət çəkmək məqsədilə "elm" sözü 80, elmlə bağlı digər sözlər 100, "ağıl" sözü 16, ağılla bağlı digər sözlər 49, "fikir" sözü 18, "anlamaq" sözü 21, "hikmət" sözü 20, "dəlil" sözü 7 dəfə işlədilib ki, bu da İslamın elmə və biliyə verdiyi dəyərin və önəmin göstəricisidir (Məmmədov, 2018, 106). İbadət etmək, gözəl və saleh əməl sahibi olmaq dünya və axirətdə fəzilət sahibi olmaq deməkdir. Paralel olaraq onu da vurğulamaq lazımdır ki, dinə dərk edilərək ibadət edilirsə bu həqiqət daha da gözəlləşmiş olur. Din cəmiyyətdə bir sıra qanunauyğunluqların harmoniyasını təmin edən sistemdir və fenomenoloji olaraq insana ümid verərək motivasiya edir. Psixoloji baxımdan din və ya dini baxışlar dedikdə, ilk öncə diqqətimiz dini təriqətlər, dini ayətlər, müqəddəs kitablar və s. üzərində cəmlənir. Lakin din, daha böyük məna kəsb edərək bir fərdin inanclarını, həyat yolunu, hadisələrə göstərdiyi şüurlu və ya şüursuz reaksiyaları, affektiv davranışını və fəaliyyətini əhatə edir. Psixoloji nöqteyi-nəzərdən yanaşsaq görərik ki, din hər kəsin danışa bildiyi ümumi ünsiyyət vasitəsi hesab oluna bilər. Anlayış olaraq din reallığın əks olunmasına xidmət edir. Burada bir vacib məqam vardır ki, bu reallığın cəmiyyətə hansı qüvvələr vasitəsilə ötürülməsi onun sonrakı inkişaf xəttini qəti sürətdə müəyyənləşdirir. Dində subyektivlikdən çox obyektivlik hökm sürür. Belə ki, bəzən kütlə tərəfindən qəbul edilən hər hansı bir dini inanc emosiyalar vasitəsilə ötürülərək ayrı-ayrı şəxslər tərəfindən müzakirəsiz qəbul edilir. Burada adekvat olan və olmayan cəhətlər

təzahür edə bilər. Emosiyaların dini çalarları da vardır ki, onlar insanın qavrayış sistemində dərin köklər sala bilir və onu yönləndirir. Dini emosiyalar insanın daxili aləmində dominantlıq təşkil edən duyğuları idarə etmək qabiliyyətinə malikdir desək, fikrimizi daha aydın izah etmiş olarıq.

Dini etiqad məsələləri ilə əlaqədar cəmiyyətdə müxtəlif fikirlər məlumdur. Əsrlər boyu ətrafında kifayət qədər auditoriya toplayan dini etiqad məsələləri müxtəlif mülahizələrlə əsaslandırılmışdır. İngilis filosofu və sosioloqu *Herbert Spenser* söyləyirdi ki, din insan qavrayışının hüdudlarından kənardadır və təkzib olunmaz həqiqətdir (Kaya, Erkal, 20). Onun din haqqında mövqeyi əsasən aqnostik xarakter daşıyırdı. Buradan belə bir qənaətə gəlirik ki, dinin əsaslı şəkildə qəbul olunması üçün ən gözəl vasitə elm və təhsildir. Tarixi faktlar bunu deməyə əsas verir ki, xalqın maarif və inkişaf maraqlarına xidmət etməyən dini inanclar cəmiyyət üçün faydalı ola bilməz. Belə ki, elm və təhsil dinin insan şüuru tərəfindən tam qavranılmayan gerçəkliklərini əsaslandırmağa kömək edir. Paralel olaraq, din elm və təhsilin ayrılmaz hissəsi olaraq şəriət qaydaları ilə yanaşı həm də dünyəvilik xüsusiyyətinə malikdir. Deməli, din və elm-təhsil vəhdət təşkil edir və insan şüurunu idarə edən yanaşma sistemidir. Din insanları qeyri-etik və qeyri-adekvat əməllərdən uzaqlaşdıraraq humanistliyə, dürüstlüyə, xeyirxahlığa və ədalət prinsipi ilə davranmağa sövq edən fəaliyyət növüdür. Din dini etiqad və özünüdərketmə növünə görə fərqlənir. Qeyd edək ki, Azərbaycanda insanlar müxtəlif dinlərə etiqad edirlər və müvafiq hüquqi sənədlərlə tənzimlənən multikultural ölkə olaraq insanların din azadlığı təmin olunur. Dini etiqad humanistliyin və dünyəvi sabitliyin bərqərar olmasına xidmət edərsə, fərdin özünəinam və özünüdərkinə elmilik qatarsa fərd əsl insan kimi formalaşar. Dinlə elm və təhsil arasında qarşılıqlı əlaqəni qorumaq bu baxımdan son dərəcə vacib amildir. Dinin elm və təhsillə əlaqəsinin əsl mahiyyəti onun əhatə dairəsindən asılıdır.

Dinin əhatə dairəsinin inkişaf xətti insan şəxsiyyətinin formalaşmasının ikinci yarısında təşəkkül tapır. Din haqqında ibtidai təsəvvürlərə malik olan uşaq böyüdükcə ətrafındakı yaşlıları təqlid edir, lakin bu mərhələ bir o qədər həlledici rol oynamır. Dinin əhatə dairəsi insanın yeniyetməlik illərində genişlənməyə başlayır. Müxtəlif mənbələrdən dini etiqad haqqında informasiya qəbul etməyə başlayan yeniyetmə insan modeli cəmiyyətin ideyalarını mənimsəməyə başlayır. Bu müddət ərzində yetişməkdə olan insanın üzərində ciddi sosial nəzarət həyata keçirilməlidir. Belə ki, qəbul edilən informasiyanın mövqeyi və təsir imkanları nəinki həmin insanı və onun yaxınlarını, habelə bütün cəmiyyəti əhatə edən həssas məqamdır. Bilavasitə dövlət quruculuğuna sirayət edən dinin əhatə dairəsi daimi, məqsədyönlü və təşəbbüskar müşahidəyə ehtiyac duyur.

Din haqqında müxtəlif nəzəriyyələr mövcuddur. Onlardan ən məhşuru amerikalı fizik və ilahiyyatçı *İan Qram Barburun* elm və din arasındakı əlaqəyə dair dörd fərqli nəzəriyyəsində öz əksini tapır: *münaqişə, müstəqillik, dialoq* və *inteqrasiya.* Din və elm arasındakı əlaqəni anlamaq üçün fərqli perspektivlər vəd edən bu nəzəriyyələrin izahına diqqət yetirək:

- *Münaqişə nəzəriyyəsi* – dinlə elm arasında əsaslı ziddiyyəti ifadə edir. Elmi faktlara və sübutlara ehtiyac duyan bu nəzəri ideyalar inanclara etibar etmir və aqnostik deizm nəzəriyyəsi ilə oxşarlıq elementlərinə malikdir.
- *Müstəqillik nəzəriyyəsi* – dinlə elmin müxtəlif sahələrdə fəaliyyət baxımından uzlaşdığını və qarşılıqlı ziddiyyət təşkil etmədiyini ifadə edir. Elm dünyəvi təbiəti tədqiq etməyə əsas verirsə, din əxlaqi dəyərlər sistemini əhatə edərək ekzistensial suallara cavab axtarır və dünyanın ahəngini qoruyan mühüm amil kimi çıxış edə bilir.
- *Dialoq nəzəriyyəsi* – dinlə elmin qarşılıqlı təsir halında olduğunu və onlar arasında dialoqun mövcudluğunu fərz edir. Bu fərziyyənin əsas prinsipi elmi əsaslar üzərində qurulan dini təfəkkürün qiymətləndirmə və perspektiv dəyərlərini müəyyənləşdirir.
- *İnteqrasiya nəzəriyyəsi* – dinlə elmin vahid bir sistem halında tamamlanmış mənalarını ifadə edir və dini inanclar əsasında tədqiqat aparmağın da mümkünlüyünü

müdafiə edir. Bu nəzəriyyənin elementləri müvafiq məqsəd ətrafında fikir mübadiləsi aparmaq üçün bütün fürsətləri dəyərləndirir (30).

**İnsanın milli özünüdərk xüsusiyyətində dinin rolu (sosial-psixoloji, sosial-fəlsəfi və sosioloji aspektdən təhlil)**. Dinin əhatə dairəsi psixoloji baxımdan böyük ictimai əhəmiyyət kəsb edir. Belə ki, nəzəri və təcrübi mövqe baxımdan ictimai müxtəlifliyi ifadə edən dini görüşlər inanc formasında yayılır və nəticə etibarilə sosial həyatın özəyini təşkil edir. Din psixoloji olmaqla yanaşı sosioloji baxımdan da böyük önəm kəsb edən təsir vasitəsidir. Din və cəmiyyət arasındakı əlaqə demək olar ki, bütün sosial institutların münasibətlər sisteminə təsir göstərir. Din sosial-psixoloji institutların əsas mənbələrindən biridir. Psixologiya din və dini etiqadın əsas mahiyyətini tədqiq edən elm sahəsi olmasa da, insanın dinə olan münasibətini və dini görüşlərin insanın davranışına, düşüncə tərzinə və sosial əlaqələrinə göstərdiyi təsirləri öyrənir. Psixologiya din və cəmiyyət arasında formalaşan sferanın səbəb-nəticə əlaqələrini tədqiq edərək meydana gələn problemlərin aradan qaldırılması üsullarını izah etməyə çalışır. Dini inanc çox güclü təsir vasitəsidir. Dini inanc və ibadət məsələləri insanların intellektual və emosional qavrayış funksiyalarına nüfuz edə bilir. Dini inancların insan psixologiyasında himayə etdiyi düşüncələri ciddi şəkildə nəzərə almaq lazımdır. Dinin sosial-psixoloji tərəfləri də məhz bu amillərlə şərtlənir.

İslam dinini tədqiq edən bir sıra alimlər dini, fəlsəfi və mədəni meyarlar ehtiva edən mənbələrdən faydalanaraq insanın ruhi quruluşu və davranışları mövzusunda müxtəlif məfhum və anlayışlar inkişaf etdirmişlər. Məhz VIII əsrdən etibarən *"İlmun-nəfs"*, *"İlmun-nəfs vər-Ruh"*, *"Kitabur-Ruh", "İlmi-əhvali Ruh"* kimi mövzuları əhatə edən tədqiqatlar aparılmışdır. İraqlı ilahiyyatçı *Haris əl-Muhasibinin* ən məşhur əsərlərindən biri olan *"Ər-Riya"* psixoloji təhlilləri özündə cəmləşdirən ən əhatəli əsər hesab edilir. Bu əsərdə ixlas, rəyaset (başçı olmaq eşqi), mübahat (aldanma), tafahur, təhasud (həsəd aparmaq), həya, məsiyət ve riya kimi anlayışlardan bəhs olunmuşdur. Bundan əlavə, əxlaqla əlaqəli *"Marifəti-nəfs"* mövzusunda geniş məlumat verilmişdir. Tədqiq etdiyi mövzuları dərindən və ən incə təfərrüatı ilə tədqiq edən Haris əl-Mühasibi davranışları xətaratlar [2] ilə əlaqələndirmişdir. Muhasibi xətaratdan "qəlbləri hər cür xeyir və şərə çağıran dəvətçilər" olaraq bəhs edir (18). Dini inancların insanlara normativ olaraq qəbul etdirdiyi və etdirmədiyi fərqli davranış formaları mövcuddur. Əgər dini təbliğ edən təsir qüvvəsi insanın mənəviyyatını zənginləşdirirsə, onu özünü dərketməsinə sövq edirsə, daxili aləmində təzadlara yol açmırsa, insanla cəmiyyət və cəmiyyətlə dövlət arasında uçuruma səbəb olmursa, dini inancın dinamikasını sosial-psixoloji reallıq kimi qəbul etmək olar. Ona hətta kifayət qədər funksiya, struktur və vəzifələr yükləməklə aktuallaşdırmaq da olar. Məsələn, əgər dini inancı yüksək olan insan ətrafına pozitiv enerji ötürürsə, dini olduğu kimi düzgün təbliğ edirsə, dini görüşlərini bəşəriyyəti narahat edən problemlərin aradan qaldırılmasına yönəldirsə (boşanma, bullinq, narkomaniya, insan alveri, erkən nigahlar və s.), insanları yanlış qərarlar verməkdən çəkindirirsə, xüsusilə yeniyetmə və gənclərin qarşısında gözəl tərbiyə nümunələri, böyüyə hörmət, kiçiyə qayğı, Vətənə sevgi və bağlılıq təsəvvürləri ilə çıxış edirsə, din ibadət etdikcə gözəlləşir, insanın ruhu saflaşır. Gözəl və saf ruh isə yalnız ədalətli şəxsiyyət formalaşdıra bilər. Sadaladığımız cəhətlər din və cəmiyyətin sosial tərəflərini mühitlə də əlaqələndirir. Mühit isə şəxsiyyətin inkişafını və formalaşmasını şərtləndirən ən əsas hərəkətverici qüvvələrdən biridir.

Dini inanc məsələləri ilə bağlı elmdə müxtəlif sosial-fəlsəfi fikirlər səsləndirilmişdir. Xüsusilə də, filosof alimlər tərəfindən tədqiq edilən dini etiqad məsələləri qəbul edilən və edilməyən tərəfləri ilə maraq doğurur. Məşhur fransız sosioloq və filosof *Emil Durkheym* dini etiqad məsələlərinə sosioloji və fəlsəfi prizmadan yanaşaraq dini əqidəni formalaşdıran əsas üsullara dini ayət və ibadət formasını aid etmişdir (Kaya, Erkal, 1997, 21). Durkheym dini məsələləri bir qədər yeknəsəq struktur adlandırmışdır. Dinin cəmiyyətdən ayrı olması fikri

---

[2] Xətaratın mənbəyi nəfs, şeytan və ağıl olaraq ifadə edilir. Haris əl-Muhasibi xətaratdan "qəlbləri hər cür xeyir və şərə çağıran dəvətçilər" olaraq bəhs edir.

ilə razılaşmayan və dinə *statik* və *dinamik struktur* olmaqla iki prizmadan yanaşan fransız filosof *Henri Berqsona* görə isə din insanın həm maddi, həm də mənəvi tərəflərini nizama salan bir güc mənbəyidir. “Din və insanlıq” əlaqələrinə əsaslanan türk sosioloq, akademik *Amiran Kurtkan Bilgiseven* da dini inancların kamilliyə apara yol və intizam qaydası olduğunu qeyd edirdi (Kaya, Erkal, 1997, 22).

Ədalət cəmiyyəti daima düşündürən məsələlərdən biri olub, İslam dinində də bu məsələyə olduqca böyük önəm verilib, ona xüsusi həssaslıqla yanaşılıb. İslama görə, doğru və qərəzsiz davranmaq, cəmiyyətdəki maddi durumundan və mövqeyindən aslı olmayaraq bütün insanlara bərabər münasibət göstərmək, toplumun və dövlətin təməlini təşkil edən əsas amillərdən biridir. Adil davranmaq və ədaləti uca tutmaq tarixin müəyyən dövrlərində şair və mütəfəkkirlərin əsərlərində prioritet məsələlərdən olub. Dahi azərbaycanlı mütəfəkkir *Nizami Gəncəvinin* yaradıcılığında öz əksini tapmış multikultural dəyərlərə gəlincə, onun Azərbaycanda qədim tarixi və böyük ənənələri vardır. Belə ki, ən qədim zamanlardan ölkəmizdə müxtəlif xalqların nümayəndələri birgə yaşamış, möhkəm dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələri qurmuşdur. Bu dəyər bir çox şair və mütəfəkirlərimizin, o cümlədən, dahi Nizaminin də əsərlərində özünə yer tapmışdır. Bu baxımdan böyük mütəfəkkir Nizami Gəncəvinin məşhur *"Yeddi gözəl"* poemasını multikultural ideyalar əsasında yazılmış möhtəşəm bir sənət nümunəsi hesab etmək olar. Dahi şair əsərlərində öncə Uca Yaradanı mədh etmiş, hər bir işə Allahın adıyla başlamağı tövsiyə etmiş, bütün yaxşılıq və gözəlliklərin Onun əsəri olduğunu vurğulamışdır. O, məhz *"İqbalnamə"yə* də bu ənənəyə sadiq qalaraq başlamışdır (19):



* * *

Harda ki, ağıl bir xəzinə tapar,
Allahın adını eyləyər açar.
Allah ağıllıya nəvazişkardır,
Ağılsızlara da əlacı vardır.[3]

* * *

Din insanla cəmiyyət arasında mühüm sosial əlaqə yaratmaqla bərabər həmin əlaqələrin daşıyıcısına çevirilir və mühüm reallıq kimi “imanlı insan”, “ibadət”, “din və cəmiyyət” anlayışlarını ifadə edir. Bu sahədə fəaliyyət göstərən olduqca dəyərli insanlar vardır ki, dini etiqad məsələlərini “müqəddəs və ali varlıq olan imanlı insan” təfəkkürünün formalaşması istiqamətində səy göstərir və dövlət quruculuğunun dini mahiyyətinə dəyər qatır. Dini etiqad məsələləri fəlsəfi məna daşıyan sosial reallıqdır. Din və cəmiyyət hadisələri bir-birilə əlaqədardır və bəşər sivilizasiyası mövcud olduğu müddətcə qarşılıqlı təsirdədir. Əsas sosial-fəlsəfi məna cəmiyyətin dinə olan münasibətində gizlidir. İctimai münasibətlər sisteminin əsas tərkib hissəsi olan insan dini inanclarına və dini qavrayış tərzinə görə fərqlənir. Zəmanəmizdə dini icmaların sayı müxtəlif rəqəmlərlə səciyyələnir. Lakin belə bir məqama diqqət yetirək. Onların hər biri cəmiyyətə fayda verirmi? İnsanların gələcək inkişafı üçün və dövlət quruculuğu istiqamətində hər hansı bir müsbət addımlar atırmı? Müşahidələr də göstərir ki, dini inanclardan fizioqnomik maska olaraq istifadə edənlərin sayı çoxdur. Unutmaq olmaz ki, din ictimai həyat üçün yalnız dərk edilərək ibadət edildiyində təhlükəsizlik ifadə edir. Dini inancların cəmiyyəti mədəni və mənəvi baxımdan tərəqqiyə inandıran və müxtəlif sosial institutları birləşdirən funksiyası onun gözəlliyinin ən ümdə təzahürüdür. Azərbaycan dünyəvi dövlətdir və din dövlətdən ayrıdır. Zəruri hal kimi qeyd etmək istərdik ki, hal-hazırda Azərbaycanda dini etiqad məsələlərinə və insanların dini incanlarına son

[3] Gəncəvi, N. (2004, 5). İskəndərnamə. İqbalnamə. Bakı: "Lider nəşriyyatı" (256 s.).

dərəcə diqqət və qayğı ilə yanaşılır. Azərbaycan özünün tolerant, humanist və insansevər dini dövlət siyasəti ilə bütün dünyanın diqqətini özündə cəmləşdirmişdir.

Din insanın sosial həyat tərzinə güclü təsir göstərir. Din elə bir incə təsir vasitəsidir ki, insanın ruhunun və mənəvi mövcudluğunun ən dərin güşələrinə nüfuz edə bilir. İnsan savadlı şəkildə ibadət edərək mənəvi yüksəlişin ən möhkəm məqamında özünü dərkə qovuşa bilər. Daxilində Allah sevgisi və iman olan qəlb sahibi təbiətin vahidlik və bütünlük əhəmiyyətini təmsil edən varlığa çevrilir. Apardığımız təhlillər dinin fərdi və ictimai həyatın ahəngini tənzimləyən bir neçə funksiyasını müəyyən etməyə imkan vermişdir. Onlara növbəti qaydada şərh vermək istərdik. Belə ki, din:

- *cəmiyyətin nizamsızlığa, ümidsizliyə və aqressiyaya dözümlülüyünü artırır;*
- *şəxsi davranışın əsası kimi çıxış edərək insanları həyat çətinlikləri qarşısında mübariz və səbrli olmağa çağırır;*
- *dövlət quruculuğunda alturistik kommunikasiyaların idarə edilməsinə dəstək göstərir.*

**Dövlət-din münasibətlərinin tənzimlənməsində dini substansiya anlayışının əhəmiyyəti.** Şəxsiyyətlərarası münasibətlərin təzahür etdiyi geniş insan kütlələrində ictimai fikir birliyinin yaranması üçün ümumbəşəri səciyyə kəsb edən emosional dəyərlərin olması cəmiyyətdə mürüvvət xüsusiyyətlərə malik insanların formalaşmasına şərait yaradır. Sözün həqiqi mənasında vətəndaş olaraq yetişmək və fəaliyyət göstərmək üçün insanın ictimai mövqeyi müvafiq nizam-intizam qaydalarına əsaslanmalıdır. Bu baxımdan, din mühüm sosial-psixoloji və ideoloji aspektlərə söykənir. İslam dini özünün humanist həqiqətləri və mahiyyəti etibarilə digər dinlərdən fərqlənir və varlığın təşəkkülü haqqında baxış tərzi yaradır. Bu baxımdan, dinimizin cəmiyyət tərəfindən düzgün şəkildə qavranılması, ibadətin birgəyaşayış təcrübəsinə xidmət etməsi və islam mədəniyyətinin dünya miqyasında adekvat təbliği olduqca vacib rol oynayır. Dövlət və din münasibətlərində oxşar və fərqli nöqtələr də mövcuddur. Belə ki, insan digər insanları Allaha olan inancına uyğun olaraq qavrayırsa, şəxsiyyətlərarası münasibətlər sistemində dini baxışlarına istinad edirsə, kainatın, bilavasitə isə dövlətin tərkib hissəsi olaraq şəxsi nümunəsi ilə fövqəl mövcudluğunu davam etdirirsə, bu onu dini substansiyanın tərəfdaşına çevirir. *Bəs nədir dini substansiya?* Məlumdur ki, hər bir insan azad seçim nəticəsində qəbul etdiyi və inanıb iman gətirdiyi dinə etiqad göstərməkdə sərbəstdir. Etiqad və ibadət isə Allah qarşısında yerinə yetirilməsi vacib olan ilahi vəzifədir. Lakin, burada incə bir məqam var. Dini görüşlərin çox güclü sirayət edici xüsusiyyəti olduğu üçün bu sahədə insanların kortəbii davranışı və fəaliyyəti lokal səviyyədə onun özünə və yaxınlarına, qlobal səviyyədə isə bütünlükdə dövlətə zidd halların baş verməsi ilə nəticələnə bilər. Cəmiyyətdə təhlükəsizlik şəbəkəsinin təmin olunması məqsədilə atılan addımlar çərçivəsində belə halların qarşısı mütləq şəkildə alınmalıdır. Dini inanc və ibadət bir fəzilət olaraq insanın fərdi inkişafında və ətraf mühitə qarşı humanist davranışında əks olunmalıdır.

**Dövlət quruculuğunda dini etiqad məsələlərinə münasibət.** Dövlət-din münasibətlərində diqqəti cəlb edən məqamlardan biri də dövlət və din münasibətlərinin təsnifat məsələsidir. Müxtəlif mənbələrdə təqdim edilən dövlət-din münasibətləri əsasən dörd qrupda təsnif edilir: *teokratiya*, *bizantinizm*, *konkordat* və *dünyəvilik* (Qənbərov, 2017, 21). Dövlət-din münasibətlərinin daha təfərrüatlı təsnifatı haqqında məlumatı politoloq *Ceff Haynes* “Religion in Global Politics” (“Qlobal siyasətdə din”) adlı əsərində növbəti qaydada təqdim etmişdir: *konfessional model; ümumi dini model; rəsmi status verilmiş din modeli; liberal sekulyar model; marksist sekulyar model*. Azərbaycan Respublikasının dövlət-din münasibətləri modeli sadalanan dövlət-din münasibətləri modelləri içərisində liberal sekulyar modelin mövcudluğu ilə uzlaşır. Belə ki, Azərbaycan Respublikasının dövlət-din modeli milli siyasətdə dinin roluna müsbət münasibət bəsləyən bir istiqamətdə həyata keçirilir (Qənbərov, 2017, 26-27). Bu gün Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev dövlətin daxili və xarici siyasətini uğurla davam etdirərək insanların dini etiqad məsələlərinə böyük diqqət göstərir (Məmmədov, 2018, 6) Azərbaycanda dini siyasət elm və

təhsilin birgə inkişafı fonunda aparılır. Bu baxımdan İslam dini elmi yaradıcılığın, dühanın, adət-ənənələrin, ictimai fikrin və intellektual dünyagörüşünün əhatəsində dərk edilir. Nəticə etibarilə, dini inancların elm və təhsillə birləşməsi yenilməz ictimai qüvvə olaraq təzadlardan və mürəkkəblikdən uzaq etiqad tərzinə çevrilir. Prezident İlham Əliyev Azərbaycanı dünyanın sivil mərkəzinə çevirmişdir. Azərbaycan dini dövlət olmasa da, ölkə rəhbərliyi milli özünəməxsusluğun İslam dininin gözəlliyi ilə vəhdətini azərbaycançılığın inkişaf tendensiyasına çevirməyi də bacarmışdır. Bu çox böyük bir uğurdur. Prezident İlham Əliyev V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki çıxışında Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların birgə yaşadığını, ölkədə daim dini tolerantlığın hökm sürdüyünü xatırladaraq Respublikamızda multikulturalizmin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu qeyd etmişdir. Azərbaycanda 2016-cı ilin multikulturalizm, 2017-ci ilin isə İslam həmrəyliyi ili elan edilmişdir ki, bu da dünyada multikulturalizm tendensiyasına beynəlxalq səviyyədə vacib töhfədir. Dövlət başçısı ayrı-ayrı vaxtlarda Bakıda keçirilən dini etiqad, mədəniyyətlərarası əlaqə və tolerantlıq mövzusunda tədbirlər çərçivəsində qəbul edilən qərarların, aparılan müzakirə və fikir mübadiləsinin bir sıra mötəbər təşkilatlar tərəfindən dəstəklənməsinin əhəmiyyətindən söz açaraq Azərbaycanın dövlət siyasətinin dünya ölkələri ilə əməkdaşlığın və tərəfdaşlığın genişləndirilməsinə yönəldiyini də vurğulamışdır (20).

Azərbaycanın milli mənəvi dəyərləri o qədər yüksəkdir ki, mənəviyyatın və tolerantlığın beynəlxalq münasibətlərə də göstərdiyi təsir diqqətdən kənar qalmayır. Azərbaycançılıq məfkurəsi və milli özünüdərk İslam amili ilə xalqın mənəvi intibahının təmantçısı kimi ölkəmizdə bir növ xalqın dəyərli inam və sülh təcrübəsinə çevrilmişdir. Azərbaycanda vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan mədəni və siyasi əlaqələrin ənənələri bu gün də yaşayır və davam etdirilir. *Məhz 12 noyabr 2021-ci il tarixdə* İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə iştirakı zamanı Prezident İlham Əliyevə təqdim edilən *"Türk Dünyasının Ali Ordeni"* onun türk dünyası qarşısında göstərilən müstəsna xidmətlərinin nəticəsini ifadə edir (17).



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Türk Dünyasının Ali Ordeni"ni təqdim edir.**
**12 noyabr, 2021-ci il**
**Türkiyə, İstanbul**

Dünyada bu qədər faciə və fəlakət xarakterli hadisələrin yaşanması fonunda Allaha şükürlər olsun ki, Azərbaycanı qoruyan göy üzündə Uca Tanrı, yer üzündə isə Müzəffər Ali Baş Komandanı Cənab İlham Əliyev və qalib ordusu var! Cənab Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqli şəkildə davam etdirərək ona həvalə edilən Azərbaycan xalqının taleyini düşünür və milləti real gerçəkliklərə səfərbər edir. Real həyati sübutlara əsaslanaraq vurğulaya bilərik ki, millətin varlığını tarixə qızıl hərflərlə həkk edən Cənab Prezident İlham Əliyevin mükəmməl diplomatik siyasəti nəticəsində Azərbaycan xalqını işıqlı və parlaq, sülh və xoşbəxt gələcək vəd edən sabahlar gözləyir!

Məlumdur ki, sülh və suverenlik şəraitində sabit inkişaf məsələləri günümüzdə xüsusi aktuallıq kəsb edir. Zənnimizcə, bu da bir İlahi qismət və yazıdır. 2025-ci ilin ikinci yarısında illər öncə təməli dahi lider Heydər Əliyev tərəfindən qoyulan sülhsevər dövlət siyasətinin insanların tolerantlığa və humanizmə çağırılması ənənəsi müqəddəs bir ata vəsiyyəti olaraq Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin dünyaya örnək olan növbəti siyasi uğurunda bütün Cənubi Qafqazın, əsas da Azərbaycan xalqının gələcək taleyində əmin-amanlıq, stabil siyasi nüfuz və iqtisadi inkişaf müstəvisində müstəsna xidməti etimadın təcəssümündə öz əksini tapdı. İnsan tam səmimiyyəti ilə etiraf etmək istəyir ki, əldə olunan

belə bir möhtəşəm beynəlxalq diplomatik uğuru ifadə etmək istədikdə bəzən sözlər emosiyalar qarşısında aciz qalır!

Azərbaycanını, Vətənini sevən bir vətəndaş olaraq ölkə rəhbərliyi tərəfindən görülən işləri izləmək, şahidi olmaq və heyran qalmamaq mümkün deyildir. 09 avqust 2025-ci il tarixdə Azərbaycanın diplomatiya səhifəsində siyasi zirvənin və qələbənin portretinə bütün xalq olaraq şahidlik etdik. Belə ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan avqustun 8-də Ağ Evdə mətbuata bəyanatla çıxış edərək regionda və bütün Cənubi Qafqazda sülh və əmin-amanlığın bərqərar olması istiqamətində siyasi əhəmiyyətli Saziş imzaladılar (21). Böyük qürur hissi ilə vurğulamaq istərdik ki, Azərbaycan xalqının alternativi olmayan Prezidenti Cənab İlham Əliyev 30 ildən bəri millətin qəlb yarasına çevrilən Qarabağ problemini özünün və Ali Baş Komandanı olduğu müzəffər Azərbaycan ordusunun igid və qəhrəman oğullarının əməyi ilə cəmi 44 günlük haqq və ədalət savaşında düşmən tapdağından azad edərək həll etdi. Sonrakı mərhələlərdə isə möhtəşəm diplomatik və strateji hazırlıq nümayiş etdirərək regionda əbədi sülh və stabil inkişafın carçısı olan müttəfiqlik qarantiyasına nail oldu. Canlı əfsanə Prezident İlham Əliyev qeyrətli xisləti və dahiyanə təfəkkürü ilə müqəddəs ata vəsiyyətinin öhdəliyini yerinə yetirərək gələcəyin xoşbəxt ailələrinin, işıqlı sabahlarının təməlini qoydu! Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Azərbaycan xalqının bənzərsiz strateqi, rəşadətli oğlu və sönməyən Günəşidir!

Din-dövlət münasibətlərində və milli özünüdərk məsələlərində Ulu Öndər Heydər Əliyevin rolu mövzusunun aktuallığını stimullaşdıran məqamlardan biri də Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın müdrik həyat fəlsəfəsi və şərəfli ömür kitabıdır. Mərhəmətli və nəcib qəlbi ilə hər bir vətəndaşın ümid yeri olan sülh və xoşbəxtlik səfirimiz dəyərli Mehriban xanım Əliyeva xeyirxahlıq və qayğıkeşlik mücəssəməsidir. Məlumdur ki, Mehriban xanım Əliyeva Azərbaycanda 10 may 2004-cü il tarixdə təməli qoyulan Ümummilli lider Heydər Əliyevin qayğıkeş fəaliyyətinin davam etdirilməsinə və zəngin irsinin öyrənilməsinə əsaslanaraq ölkəmizdə hərtərəfli tərəqqinin və Azərbaycan xalqının rifahı naminə ondan istifadə olunmasına, genişmiqyaslı proqramların həyata keçirilməsinə, milli-mənəvi dəyərlərin qorunmasına, milli özünüdərkin, azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunmasına, müstəqil Azərbaycan Respublikasının iqtisadi qüdrətinin artırılmasını dəstəkləyən layihələrin gerçəkləşdirilməsinə, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirlərin həyata keçirilməsinə, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmasına, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsinə və Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə xidmət edən Heydər Əliyev Fonduna rəhbərlik edir. Fond Heydər Əliyev siyasi məfkurəsinin əbədiyaşar səciyyəsini əks etdirməklə qloballaşan dünyada Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq niyyəti və Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədilə yaradılmışdır (Qurbanlı, 2017, 7-8). Ölkəmizdə maddi və qeyri-maddi irsin qorunub saxlanılması, Azərbaycanda və xarici ölkələrdə tarixi, dini, mədəni abidələrin bərpası, məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları və s. elmi, mədəni və sosial mərkəzlərin açılması sahəsində Heydər Əliyev Fondunun əməyi böyükdür (22). Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın apardığı geniş ictimai fəaliyyət bütün dünyada yüksək qiymətləndirilir. Belə ki, bunun nəticəsi olaraq Azərbaycanın bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla münasibətləri ən yüksək inkişaf səviyyəsinə çatmışdır (Niyazov, 2013, 63-64). Azərbaycan-UNESCO münasibətlərinin yüksək miqyasda inkişaf etdirilməsi sahəsində Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı səfir olaraq 2004-2022-ci illər ərzində UNESCO xətti ilə göstərdiyi fəaliyyət xüsusi əhəmiyyət kəsb edir.

Mehriban Əliyeva Azərbaycanın zəngin mədəniyyətinin dünyada tanıdılması, qorunması və tədqiqi istiqamətində misilsiz xidmətlər göstərmişdir (23).

2006-cı ilin noyabrında Mehriban xanım Əliyeva humanitar sahədə genişmiqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, İslam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə *ISESCO-nun Xoşməramlı səfiri* adına layiq görülmüşdür (24). Dünya mədəniyyətinə göstərdiyi qayğı və diqqətinə, həmçinin Azərbaycan mədəni irsinin yaşadılması sahəsindəki töhfələrinə görə 2008-ci ildə Mehriban xanım Əliyeva UNESCO-nun *gümüş xatirə medalı*, 2010-cu ildə isə *"Qızıl Motsart" medalı* ilə təltif edilmişdir (22). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 iyun 2015-ci il tarixli Sərəncamı ilə Mehriban xanım Əliyeva Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə *"Heydər Əliyev" ordeni* ilə təltif edilmişdir (26).




Azərbaycanda sivilizasiyalararası dialoqun möhkəmləndirilməsində, mədəni əlaqələrin genişləndirilməsində, dini dözümlülük məsələlərinin geniş vüsət almasında, Azərbaycanda sülh və humanizm ideyalarının milli özünüdərk amili kimi qavranılmasında müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyeva Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsini özünün ali məramı və praqmatik ideyaları ilə əsaslandıraraq fəaliyyətinin real istiqamətini cəmiyyətin inkişafı və tərəqqi ənənələrinin möhkəmləndirilməsinə həsr etmiş, ölkədə maarifçilik, milli vətənpərvərlik və mədəniyyət erasına yeni nəfəs gətirmişdir. Azərbaycan xalqının milli-mənəvi dünyasına işıq gətirən Mehriban xanım Əliyevanın xoşməramlı və humanist həyat fəlsəfəsi insanlara yardım etmək və milli kimlik ənənələrini inkişaf etdirmək sahəsində konstruktiv tədbirlər reallaşdırmaqdan ibarətdir. Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti və xalqın Birinci xanımı olaraq vətəndaş cəmiyyətinin ailə ocağıdır!

**Müasir çağırışlar və cəmiyyətin milli-mənəvi inkişafının ictimai prioritetləri.** İslam dininin müqəddəs kitabı olan "Qurani-Kərim"də insanlar sülhə və humanizmə çağırılır və bəşəriyyətə müraciət edilərək deyilir: "Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! (Əl-Bəqərə, 208). Bu o deməkdir ki, islamın müqəddəs kitabında bütün insanların sülhə çağırılması Allahın buyurduğu qanundur! (Hüseynov, 2012, 24). İslam meydana gəldiyi gündən müsəlmanları elm öyrənməyə, savadlı və bilikli olmağa, elm uğrunda çətinlik və məşəqqətlərə dözməyə təşviq etmiş, bilikli insanların biliksiz insanlarla müqayisədə Allah qatında üstün və daha fəzilətli olduğunu bəyan etmişdir. "Qurani-Kərim"in ilk ayələri "oxumaq" və "qələm" sözləri ilə başlayır, bir çox ayələrdə isə Allah-Taala insanlara düşünməyi, fikirləşməyi, ağıl, təfəkkür sahibi olmağı, mövhumat və cəhalətdən uzaq olmağı tövsiyə edir (Məmmədov, 2018, 105).

İnsan sosial varlıq olduğu üçün daima ictimai münasibətlərin təşkilində mühüm və əlaqələndirici rol ifa edir. Effektiv fəaliyyətin təmin olunması üçün isə insan təhlükəsiz və suveren hakimiyyətə ehtiyac duyur. İdarə olunmaq idarə etmək qədər çətin olduğundan insan özünün psixoloji vəziyyətini tənzimləmək və bu təbii hadisəyə uyğunlaşmaq üçün etibar və etimad hissinə qapılır. Özünü inamlı və etibarlı mühitdə hiss etmək tələbatı bütün yaradılan varlıqlarda müşahidə olunur. Nəticə etibarilə, biz hər birimiz təbiətə, yəni Allaha sığınırıq. Özünüdərkin ilkin qığılcımı da bu fikirlə əlaqədardır. Özünüdərk ətraf mühiti düzgün

qavramaq, güzəştə getmək və ya həyat uğrunda zəruri mübarizə aparmaq kimi xüsusiyyətləri ehtiva edir. Bu xüsusiyyətlər insanların sosial varlıq kimi inkişafını və digər insanlarla birlikdə dünyanı paylaşmağı da tələb edir. Əməkdaşlıq əlaqələrinin müəyyən hüquqi və ədalət məfhumları ilə idarə olunması qeyd olunan məsələləri tənzimləyən əsas meyardır. Hər bir insan öz sosial və fiziki siması ilə cəmiyyətdə, bilavasitə dövlətdə özünəməxsus iz qoyur və fərdilik şüuruna əsaslanır. Lakin, fərdilik şüurunun kollektiv münasibətlərə mane olmaması üçün fərdi maraqları cəmiyyətin maraqları ilə uyğunlaşdırmağa cəhd göstərmək lazımdır. İnsanın inkişaf etmək, maddi və mənəvi qazanc əldə etmək istəyi çox təbii hal kimi qiymətləndirilə bilər. Sadəcə olaraq, sosial vahidlərin tarazlığının pozulmaması üçün çalışmaq lazımdır. Belə bir sistem dövlət qurucuğunun daxili təməli kimi hər bir vətəndaş tərəfindən qavranılarsa, dövlətin inkişafı bütün sahələrdə olduğu kimi dini siyasət sferasında da təşkilati zirvədə davam edə bilər. Sevindirici haldır ki, vətəndaşı olduğumuz ölkə səriştəli və əmin əllərdədir. Günümüzdə Azərbaycan öz suverenliyini tam olaraq bərpa etmiş demokratik respublikadır. Cənab Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasında 2025-ci il *“Konstitusiya və Suverenlik İli”* elan edilmişdir. Zənnimizcə, bu Sərəncamın imzalanmasında dövlətimizin əsas məqsədi tərkib hissəsi olan hər bir vətəndaşını idarəetmənin təşkilati reallığının və gələcək inkişaf perspektivinin bir hissəsi olmağa çağırmaqdır. Dövlət qanunverilicilik əsasında hakimiyyət və suverenlik kimi funksiyaları yerinə yetirməklə şəxsiyyət və cəmiyyət arasında tarazlığın koordinasiyasını təmin edən zəruri bir qurumdur. Bu baxımdan, dövlətin inkişafı insan faktorundan və onun zəruri sosial dərketməsindən asılı olan reallıq olduğu üçün din, dil, əxlaq və s. dəyərlər ən yüksək səviyyədə qorunur və fenomenoloji hadisə kimi öyrənilir.

**Nəticə.** Tədqiqat zamanı məzmun təhlili tədqiqat metodunun (27) elmi imkanlarından istifadə olunaraq mövzunu əhatə edən real hadisələr, elmi əsərlər, tarixi və siyasi faktlar üzərində keyfiyyət yönümlü analizlər aparılmışdır. Sosial-psixoloji, sosial-fəlsəfi, sosioloji və siyasi meyarlar üzrə manifest təsnifatlar aparılaraq nəticələr əsas mətnin daxilində yarımbaşlıqlar şəklində təqdim olunmuşdur. Eyni zamanda tədqiq edilən reallıqların təcrübi baxımdan əsaslandırılması və sosial qarşılıqlı əlaqələrin təyin edilməsi məqsədilə əlaqəli konstruktivizm yanaşmasına (28) istinad edilmişdir. Əldə edilən elmi nəticələr onu deməyə əsas vermişdir ki, insanların dini inanclarında ictimai həyatın müxtəlif funksiyaları aydın şəkildə təzahür edir. Məlum olmuşdur ki, bir sıra ümumbəşəri dünya dinlərini birləşdirən ortaq və fərqli xüsusiyyətlər vardır, məsələn *transsendent* [4] (Şirinov, 2020, 289) varlığa olan inam demək olar ki, bütün dini inanclarda müşahidə olunur. Bu inanc, yəni Allaha olan inam insanlar üçün kainat, bütün digər insanlar və varlıqlar, həyat haqqında vahid bir baxışın formalaşmasına kömək edir. Həmçinin, dinlər arasında fövqəl varlığın insan və ictimai həyatdakı yeri, xüsusiyyətləri və insanlarla münasibətləri ilə bağlı ciddi fərqlər də nəzərə çarpır. Məsələn, İslam dinində Allah inancı ilə Xristian dinində Allah inancı arasında oxşarlıqdan daha çox fərqlər diqqəti çəkir. Zənnimizcə, İslam dini özünün elmi-fəlsəfi aspektlərinə görə daha zəngindir. Dinimizdə dünya həyatı əbədi axirət xoşbəxtliyinə nail olmaq üçün bir fürsət hesab edilir və dünya həyatındakı rəftar və davranışlarımızdan asılıdır. İslamın əsas gözəlliklərindən biri də budur. İslam dini – ümidləri, inancları, təcrübələri, etik və sosial prinsipləri, məhsuldar fəaliyyəti himayə edərək insanları əsl şəxsiyyət olaraq formalaşmağa təşviq edir. Başqa sözlə desək, İslam dini bir həyat qazancıdır, sərvətdir və dünya ilə axirət arasındakı tarazlığı əsaslı şəkildə tənzimləyir.

Dövlət-din münasibətlərinin və milli özünündərk məsələlərinin tənzimlənməsi istiqamətində Heydər Əliyevin rolu onun həyata keçirdiyi əhəmiyyətli tədbirlərdə əks

---

[4] **Transsendensiya, transsendentlik** (*lat. transcendens*; hərf. "sərhədləri aşmaq, kənara çıxmaq") – fəlsəfi anlayışdır. Empirik təfəkkür üçün əlçatmaz olan, duyğuların təcrübəsindən kənara çıxan bir anlayışdır. Geniş mənada *transsendent* “o biri dünya” kimi başa düşülür – insan varlığının “o biri tərəfində” olan; bu məfhum varlığın immanentinə – “bu dünyaya” qarşıdır, yəni varlığın “o tərəfində” yerləşir. Din və metafizikanın transsendentin bilikləri ilə məşğul olduğuna inanılır.

olunmuşdur. Azərbaycanda dövlət-din münasibətlərinin də milli özünüdərk məsələlərinin tənzimlənməsində Heydər Əliyev özünün uzaqgörən və müdrik fəlsəfəsi ilə dini münasibətləri dövlət səviyyəsində, lakin dövlətdən ayrı müstəvidə inkişaf etdirərək cəmiyyətin milli özünüdərk probleminin həllinə yönəltmişdir. Azərbaycanın nüfuz dairəsini bütün sahələrdə genişləndirmək, müstəqil özünüidarəni təmin etmək, Azərbaycan xalqını azərbaycançılıq məfkurəsi ətrafında birləşdirmək və millətin identikliyini davranış səviyyəsinə çatdırmaq üçün çalışmışdır. Konkret tarixi və siyasi faktlara istinad edərək aparılan məzmun təhlillərinin keyfiyyət yönümlü nəticələrini növbəti qaydada ümumiləşdirmək mümkündür:

**1.** *Dini əxlaq dəyərləri insanı həqiqi təsəvvüfdən uzaqlaşmamağa və həyata pozitiv münasibət göstərməyə sövq edir.*

**2.** *Allaha təvəkkül etmək və ümidlə yaşamaq dilindən və dinindən, irqindən və cinsindən asılı olmayaraq bütün insanlığın tarazlığını təmin edir.*

**3.** *İslam dini mənəvi zənginliyin təminatçısı olmaqla yanaşı inkişafın digər sferalarına da müsbət təsir göstərir. Sağlam düşüncəli insan sağlam ruh deməkdir. Belə olduğu halda isə ayrı-ayrı ölkələrdə insan resursu faktorial əhəmiyyətini itirmir. Nəticədə cəmiyyət qazanır.*

**4.** *Milli-mənəvi dəyərlərin qorunmasında və inkişafında sosial-psixoloji və mənəvi-ideoloji baxımdan təsiredici qüvvəyə malik olan dini inancların elm və maarifə inteqrasiya etməsi öz müsbət funksiyasını milli özünüdərk məsələlərində də biruzə verir.*

**5.** *Vətəndaş cəmiyyətinin dövlət siyasəti ilə ictimai vahid olaraq birləşdirilməsi bir ölkənin dövlət-din münasibətlərini düzgün tənzimləməsi deməkdir. Belə ki, cəmiyyətin ən mükəmməl forması vətəndaş məsuliyyəti adlı məna ətrafında birləşdirilməsi, dini ibadətin dövlətin daxili və xarici siyasətinə mənfi hədəflərlə sirayət etməməsi, insanların dünyagörüşünün və təfəkkürünün sinfi münaqişələrdən uzaq tutulması və s. platformada təmsil olunur.*

**6.** *Dini inanclar cəmiyyəti özünüinkişafa, haqq-ədalətə, xeyirxahlığa, humanizmə, dövlətin inkişafına müsbət töhfə verməyə, yetişən gənc nəslin təlim-tərbiyəsində tənzimləyici normaların daşıyıcısına çevrilməyə və əməkdaşlıq prinsipinə uyğun olan sosial quruluşun yaradılmasına və qorunmasına sövq etməlidir.*

**7.** *Dindən sui-istifadə hallarına icazə vermək olmaz. Bu bizim gənclərimizin inkişafına kölgə sala bilər. Dini inancların insanda ilk növbədə Vətənə sevgi, ailəyə sevgi, təbiətə, flora və faunaya qayğı, insanın özünüdərki, aqressiyasız şəxsiyyətlərarası münasibətlər assosiasiya etməsi, gənclərin düzgün inkişafı, zərərli vərdişlərdən uzaq olması, erkən nigahların aradan qaldırılması və s. istiqamətdə təbliğat xarakterli işlərin görülməsinə xidmət etməsi üçün çalışmaq lazımdır.*

**Təklif və tövsiyələr.** Ürəkdən gələn bir neçə qəlb sözümüzü də Sizlərlə paylaşmaq istərdik. Düşünürük ki, Allah hər birimizin qəlbində, vicdanında, əxlaqında, Vətənə, təbiətə, ailəsinə, yaxınlarına və ümumiyyətlə kainatda yaradılış hüququ qazanan bütün nemətlərə olan sevgisində, qayğısında və mərhəmətində təzahür edir. Kim bilir, bəlkə də Allah bizi hansısa ehtiyac içində olan məzlumun dualarında izləyir? Yaxud bir tikə yemək verməyimiz üçün bizi gözləyən sahibsiz heyvanın zikrindədir? Dənizlər, çaylar, çöllər, yaşıllıqlar və s. hər birində Allahın bir parçası var. Nəticə etibarilə, Allah bizim hər birimizin daxilindədir. Din və dini inanclar da elm və təhsil qədər bu gözəllikləri görmək üçün bir vasitədir. Bu vasitələrdən səmərəli istifadə edək. Vətənimizi, özümüzü, yaradılış səbəbimizi, böyüklərimizi, dövlət başçımızı və təbiətimizi sevək, hörmət edək və dəyər verək. Zənnimizcə, milli özünüdərk belə saleh əməllərdən başlayır. Diqqətə görə bütün oxucularımıza dərin hörmətlə təşəkkürümüzü bildiririk.

## Ədəbiyyat siyahısı


***Azərbaycan dilində***

**1.** Budaqov, B.Ə. (2002). Heydər Əliyev fenomeni. Bakı: “İsmayıl” Nəşriyyat-Poliqrafiya Müəssisəsi (136 s.).

**2.** Babayev, H.X. (2004). Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi. Bakı: “Borçalı” NPM (144 s.).

**3.** Gəncəvi, N. (2004). İskəndərnamə. İqbalnamə. Bakı: "Lider nəşriyyatı" (256 s.).

**4.** Hüseynov, S.Y. (2012). Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı “Təknur” (176 s.).

**5.** Hüseynzadə R.L. (2020). Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı: ADPU- nəşriyyatı (538 s).

**6.** Hüseynov S.Y. (2023). Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu. Bakı: “Tuna” QSC mətbəəsi (277 s.)

**7.** Qənbərov, A.S. (2019). Azərbaycanda dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları. Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi (216 s.).

**8.** Qurbanlı, M.Q. (2017). Mehriban Əliyeva: Dini və etnik dözümlülük bizim sərvətimizdir (tədbirlər, görüşlər, çıxışlar). Bakı: DQİDK (327 s.).

**9.** Məmmədov, V.C. (2018). Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik. Bakı: Tuna (124 s.).

**10.** Niyazov, X.Q. (2013). Ümid qapısı. Bakı: “Oskar” NPM (238 s.).

**11.** Şirinov, A.M. (2020). İzahlı dini terminlər lüğəti. Bakı: “Nurlar” NPM (320 s.).

***Türk dilində***

**12.** Kaya, K. Erkal M.E. (1994). Türkiye’de din ve devlet ilişkileri ve diyanet işleri başkanlığı. İstanbul: (163 s.).

**13.** T.C. Milli Eğitim Bakanlığı. (2018). Din kültürü və ahlak bilgisi dersi öğretim programı (35 s.)

***İngilis dilində***

**14.** Barbour İ.G. (1997) Religion and science. Historical and temporary issues. New-York: (p 367).

***İnternet resursları***

**15.** https://lib.aliyev-heritage.org/az/8365532.html

**16.** https://az.wikipedia.org/wiki/Atat%C3%BCrk_Beyn%C9%99lxalq_S%C3%BClh_M%C3%BCkafat%C4%B1

**17.** https://respublika-news.az/az/news/turk-dunyasinin-ulu-onderi-1999-cu-il-aprelin-13-de-umummilli-lider-heyder-eliyev-beynelxalq-ataturk-sulh-mukafatina-layiq-gorulub

**18.** https://az.wikipedia.org/wiki/Din_psixologiyas%C4%B1.

**19.** http://www.anl.az/down/meqale/525/2021/iyul/752011.htm

**20.** http://www.anl.az/down/meqale/olaylar/2019/may/650144.htm

**21.** https://president.az/az/articles/view/69570

**22.** https://unesco.preslib.az/az/page/wvtWNK2Sna

**23.** https://www.unesco.az/az/pages/unesco-goodwill-ambassador-mehriban-aliyeva

**24.** https://president.az/az/pages/view/first-vice-president/biography

**25.** https://unesco.preslib.az/az/page/wvtWNK2Sna

**26.** https://mehriban-aliyeva.az/site/biography

**27.** https://az.wikipedia.org/wiki/M%C9%99zmun_t%C9%99hlili

**28.** https://az.wikipedia.org/wiki/Konstruktivizm_(elmin_f%C9%99ls%C9%99f%C9%99si)

**29.** https://az.wikipedia.org/wiki/Transsendensiya

**30.** https://ohiostate.pressbooks.pub/enr3470/chapter/43/#:~:text=Ian%20Barbour%2C%20in%20his%20work,independence%2C%20dialogue%2C%20and%20integration.